# YUNUS
# PEYĞƏMBƏRİN KİTABI
## GİRİŞ

*«Yunus»* Kitabı Allahın əmrinə tabe olmaq istəməyən Yunus peyğəmbərin başına gələn əhvalatlardan bəhs edir. Allah ona möhtəşəm Aşşur imperatorluğunun paytaxtı Nineva şəhərinə getməyi buyurmuşdu. O dövrdə Aşşur İsrailin qatı düşməni idi. Buna görə də Yunus Allahın sözünü oradakılara çatdırmaq istəmirdi. Çünki o, Allahın rəhmli olmasına əmin idi. Bilirdi ki, Ninevalılar tövbə etsə, Allah onları məhv etməz. Bir neçə hadisə baş verəndən sonra, nəhayət, Yunus məcburiyyət qarşısında qalaraq Allaha itaət etdi. Yunusun peyğəmbərliyi yerinə yetməyəndə bu onu çox qəzəbləndirdi, Allah isə ona ibrət dərsi verdi.

Bu kitabdan aydın görünür ki, Allah təkcə İsrail xalqını deyil, bütün bəşəriyyəti cəzalandırmaq və məhv etmək əvəzinə bağışlamaq və xilas etmək istəyir.

**Kitabın məzmunu:**

1:1-17 Yunusun çağırışı və itaətsizliyi
2:1-10 Yunusun tövbəsi və xilası
3:1-10 Ninevalıların tövbə etməsi
4:1-11 Allahın Ninevalılara rəhmi

*Yunusun çağırışı və itaətsizliyi*

1 * Rəbbin sözü Amittay oğlu Yunusa nazil oldu:
2 «Qalx, Ninevaya – o böyük şəhərə get və ona
qarşı car çək, çünki oradakıların pisliyi gəlib Mənə
qədər çatmışdır». 3 Lakin Yunus Rəbbin hüzurundan
Tarşişə qaçmaq üçün qalxdı. Yafoya enib Tarşişə
gedən bir gəmi tapdı. Yol haqqını verib Rəbbin
hüzurundan getmək üçün onlarla birlikdə Tarşişə
gedən gəmiyə mindi.
4 Lakin Rəbb dəniz üzərində güclü külək qaldırdı,
dənizdə böyük bir fırtına qopdu və gəmi az qala
parçalanacaqdı. 5 Gəmiçilər qorxuya düşüb hər biri
öz allahını çağırdı və gəmi yüngülləşsin deyə orada
olan yükləri dənizə atdılar. Yunus isə gəminin
aşağı hissəsinə enmişdi və uzanıb bərk yuxuya get-
mişdi. 6 Gəmi rəisi onun yanına gəlib dedi: «Sən nə
yatırsan? Qalx, öz allahını çağır. Bəlkə sənin allahın
bizi yada salar və biz məhv olmarıq».
7 Gəmiçilər bir-birlərinə dedi: «Gəlin püşk ataq,
görək kimə görə bu bəla başımıza gəldi?» Püşk
atdılar və püşk Yunusa düşdü. 8 O zaman Yunus-
dan soruşdular: «Bizə de, başımıza gələn bu bəla
kimə görədir? Sənin sənətin nədir? Haradan
gəlirsən? Vətənin haradır? Hansı xalqdansan?»
9 Yunus cavab verdi: «Mən İbraniyəm. Dənizi və tor-
pağı yaradan göylərin Allahı Rəbdən qorxuram».
10 Onlar çox qorxdu və dedi: «Sən bunu nə üçün
etdin?» Çünki Yunusun Rəbdən uzaqlaşmaq üçün
qaçdığını bilirdilər, bunu onlara özü nəql etmişdi.
11 Dəniz get-gedə coşduğuna görə onlar Yunusdan
soruşdular: «Səninlə nə edək ki, dəniz qarşımızda
sakitləşsin?» 12 Yunus onlara dedi: «Məni götürüb

* **1:1** 2Pad. 14:25

dənizə atın, onda dəniz qarşınızda sakitləşər, çünki
biliRəm, bu böyük fırtına mənə görə baş verib».
13 Lakin gəmiçilər sahilə yan almaq üçün səylə avar
çəkməyə başladı, amma bacarmadı. Ona görə ki
dəniz onlara qarşı get-gedə coşurdu. 14 O zaman
onlar Rəbbə fəryad edərək dedilər: «Ya Rəbb, Sənə
yalvarırıq, qoyma bu adamın canından ötrü məhv
olaq. Günahsız qan üstümüzdə qalmasın! Çünki
Sən, ya Rəbb, Öz istədiyini etmisən». 15 Onlar
Yunusu götürüb dənizə atdı və dənizdəki fırtına
yatdı. 16 Onda adamlar Rəbdən bərk qorxdu və
Rəbbə qurban təqdim edərək əhd etdi.

17 * Yunusu udmaq üçün Rəbb böyük bir balıq
yetirdi və Yunus üç gün-üç gecə balığın qarnında
qaldı.

# 2

*Yunusun tövbəsi və xilası*

1 Yunus balığın qarnından Allahı Rəbbə dua edib
dedi:

2 «Əzab içində Rəbbi çağırdım,
O mənə cavab verdi.
Ölülər diyarının bağrından fəryad etdim,
Sən mənim səsimi eşitdin.
3 Sən məni dərinə, dənizin qoynuna atdın,
Məni sellər sarıdı,
Sənin bütün ləpələrin və dalğaların
Üstümdən keçdi.
4 Mən dedim: “Sənin gözlərinin önündən qovul-
dum”,
Lakin yenə Sənin müqəddəs məbədini görəcəyəm.

* **1:17** Mat. 12:40

5 Nəfəsim kəsilənə qədər məni sular bürüdü,
Məni dərinliklər aldı,
Başıma yosunlar sarıldı.
6 Dağların dibinə qədər endim,
Arxamca əbədilik dünya bağlandı.
Lakin, ya Rəbb Allahım, Sən canımı dərin çuxurdan çıxartdın.
7 Daxilimdə canım üzüləndə Rəbbə üz tutdum,
Mənim duam Sənə,
Sənin müqəddəs məbədinə çatdı.
8 Puç olan bütlərə səcdə edənlər
Onlara verilən lütfdən imtina edərlər.
9 Amma mən Sənə şükür nəğməsi ilə qurban gətirəcəyəm,
Əhdimi yerinə yetirəcəyəm.
Xilas Rəbdədir!»

10 Rəbb balığa əmr etdi və balıq Yunusu ağzından quruya qaytardı.

# 3

*Ninevalıların tövbə etməsi*

1 Rəbbin sözü Yunusa ikinci dəfə nazil oldu:
2 «Qalx, Ninevaya – o böyük şəhərə get və sənə
söyləyəcəyim sözləri onlara car çək». 3 Yunus
Rəbbin sözünə görə qalxıb Ninevaya getdi. Nineva
Allahın nəzərində böyük şəhər idi. Oranı üç günə
gəzib-dolaşmaq olardı. 4 * Yunus şəhəri gəzməyə
başlayıb bir günlük yol getdi və car çəkərək dedi:
«Qırx gündən sonra Nineva dağılacaq!»
5 Ninevalılar Allaha inandılar, oruc elan edərək
böyükdən kiçiyə qədər hamı çul geyindi. 6 Bu xəbər

* **3:4** Mat. 12:41; Luka 11:32

Nineva padşahına çatanda o, taxtından qalxaraq
şahlıq libasını əynindən çıxartdı və çul geyinib külün
üstündə oturdu. 7 Padşah özünün və əyanlarının
adından buyurdu ki, Ninevada elan edib desinlər:
«Nə insanlar, nə heyvanlar, nə mal-qara, nə də
ki qoyun-keçi heç nə yeməsin, otlağa getməsin və
su içməsin. 8 İnsanlar da, heyvanlar da çul geyinsin
və var gücləri ilə Allaha fəryad etsin. Hər kəs öz
pis yolundan və əllərinin zorakılığından dönsün.
9 Kim bilir, bəlkə Allah rəhmə gəlib, qızğın qəzəbini
bizdən döndərər və biz məhv olmarıq».
10 Allah onların işlərini, pis yoldan döndüklərini
gördü. Ona görə də rəhm edib əvvəlcə onların
üstünə göndərmək istədiyi bəlanı göndərmədi.

# 4

*Allahın Ninevalılara rəhmi*

1 Bu iş Yunusun heç xoşuna gəlmədi və o
hirsləndi. 2 * O, Rəbbə dua edərək dedi: «Ya
Rəbb! Mən hələ ölkəmdə ikən bunu demirdimmi?
Buna görə də mən Tarşişə qaçdım, çünki bilirdim,
Sən lütfkar, rəhmli, hədsiz səbirli, bol məhəbbətli
Allahsan və rəhm edib bəla göndərməzsən. 3 İndi
isə, ya Rəbb, yalvarıram, mənim canımı al, çünki
mənim üçün yaşamaqdansa, ölmək yaxşıdır». 4 Rəbb
dedi: «Hirslənməyin yaxşı işdirmi?»
5 Yunus şəhərdən çıxdı və şəhərin şərq tərəfində
oturdu. Orada özünə çardaq düzəldib kölgəsində
oturdu ki, şəhərdə nə baş verəcəyini görsün. 6 Rəbb
Allah Yunusun başı üstünə qalxıb kölgə salmaq və
onu pis halından qurtarmaq üçün bir gənəgərçək

---

* **4:2** Çıx. 34:6; Say. 14:18; Neh. 9:17; Zəb. 86:15; 103:8; 145:8; Yoel 2:13

bitkisi yetirdi. Yunus bu bitkiyə görə çox sevindi.
7 Lakin ertəsi gün sübh tezdən Allah bir bitki qurdu
yetirdi. Qurd bitkini içindən yedi və bitki qu-
rudu. 8 Günəş çıxanda Allah isti səmum küləyi
yetirdi. Günəş onun başını yandırdı və o taqətdən
düşüb özü üçün ölüm diləyərək dedi: «Mənim üçün
yaşamaqdansa ölmək yaxşıdır». 9 Allah Yunusa dedi:
«Məgər sənin bu bitkiyə görə hirslənməyin yaxşı
işdirmi?» O dedi: «Əlbəttə, yaxşıdır, elə hirsləndim
ki, az qala öləm».

10 Onda Rəbb dedi: «Sən zəhmətini çəkmədiyin
və yetişdirmədiyin, bir gecədə bitən və bir gecədə
məhv olan bitkiyə acıyırsan. 11 Bəs sağ əlini sol
əlindən ayıra bilməyən yüz iyirmi mindən çox
insanın və çoxlu heyvanın yaşadığı böyük şəhər
Ninevaya Mən necə acımayım?»

# Azərbaycan dilində Müqəddəs Kitab
## The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Copyright © 2008 Müqəddəs Kitab Sirkəti

Language: Azeri (Azerbaijani, South)

Translation by: Institute for Bible Translation

Contributor: Bible Society of Azerbaijan

This translation text is made available to you under the terms of the Creative Commons License: Attribution-Noncommercial-No Derivative Works. (http:// creativecommons.org/ licenses/ by-nc-nd/ 3.0/) In addition, you have permission to port the text to different file formats, as long as you do not change any of the text or punctuation of the Bible.

You may share, copy, distribute, transmit, and extract portions or quotations from this work, provided that you include the above copyright information:

You must give Attribution to the work.

You do not sell this work for a profit.

You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.

Permissions beyond the scope of this license may be available if you contact us with your request.

This translation is made available to you under the terms of the Creative Commons Attribution-Noncommercial-No Derivatives license 4.0.

You may share and redistribute this Bible translation or extracts from it in any format, provided that:

You include the above copyright and source information.

You do not sell this work for a profit.

You do not change any of the words or punctuation of the Scriptures.

Pictures included with Scriptures and other documents on this site are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

2018-11-09

---

PDF generated using Haiola and XeLaTeX on 21 Feb 2024 from source files dated 31 Aug 2023

5d1dd449-0589-5c75-ab0e-6b96786f2985